2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 02 yanvar 2015-ci il tarixli 112 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 85 saylı Şamaxı seçki dairəsi üzrə Göylər bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Salahov Toğrul Saleh oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək 85 saylı Şamaxı seçki dairəsinin 20, 21 və 22 saylı məntəqələrində səsvermə günü qanun pozuntularının olduğunu və bununla bağlı şikayət ərizəsinin araşdırılmasına dair həmin dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 28/2 saylı qərarının əsassız olduğunu iddia etmiş və seçkinin nəticələrinin ləğv edilməsini xahiş etmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətləri araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma zamanı 85 saylı Şamaxı seçki dairəsinin 20, 21 və 22 saylı məntəqə seçki komissiyası üzvlərinin, həmin seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərin izhatlarına və tərtib edilmiş aktlara əsasən müraciətdə iddia edilən hallar öz təsdiqini tapmamışdır.

Göstərilənlərdən əlavə olaraq 20 saylı seçki məntəqəsinin sədri Ə.B.Qəniyev, komissiya üzvləri S.N.Qasımova, Z.Ağayev, Ə.Adıgözəlov, müşahidəçilər M.A.Mustafayev, R.A.Abdullayev, M.Ə.Rüstəmova, 21 saylı seçki məntəqəsi üzrə komissiya üzvü Z.Ə.Nuriyeva, müşahidəçilər K.O.Qasımov, F.N.Osmanov, S.N.Nəbiyeva, Ü.D.İsmayılova, V.R.Rəsulov, İ.İ.Rəsulov, 22 saylı seçki məntəqəsi üzrə komissiya sədri B.D.Səfərov, müşahidəçilər N.Ş.Salmanov, E.B.Xəlilov, Göylər bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Y.O.Qasımov, R.S.Qaçayev, R.Ə.Nəbiyev, M.M.Mövliyeva, N.M.İsgəndərov, N.Ş.İsgəndərov, Ç.H.Daşdıyev, S.Ə.Bayramov, M.Q.İsmayılova, Şamaxı RİHB-nin Göylər kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi i.Ş.Xəlilov, müavini F.S.Məmmədrzayev öz izahatlarında bildirmişlər ki, səsvermə günü seçki prosesində hər hansı ciddi qanun pozuntusu müşahidə etməmişlər, eyni zamanda hər bir seçici şəxsən səs vermiş, səslərin hesablanması

qanunauyğun aparılmş, səsvermənin nəticələrinə dair yekun protokolu məntəqə seçki komissiyasında tərtib edilmişdir.

Şamaxı rayon polis şöbəsinin 03 yanvar 2015-ci il tarixli 30 saylı arayışına əsasən 20, 21 və 22 saylı Göylər kənd seçki məntəqələrində səsvermə bitdikdən, bülletenlər sayıldıqdan və səsvermənin nəticələrinə dair yekun protokolu tərtib olunduqdan sonra seçki bülletenləri və digər sənədlər qeydə alınmış namizədlərin, müşahidəçilərin müşayiəti ilə dairə seçki komissiyasına gətirilmiş və bu zaman heç bir insident qeydə alınmamışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməli və 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 28/2 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1 . 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Şamaxı rayonu Göylər bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Salahov Toğrul Saleh oğlu 02 yanvar 2015-ci il tarixli, 112 saylı müraciəti əsassız olduğundan təmin edilməməli və 85 saylı Şamaxı seçki dairəsi dairə seçki komissiyasının 28 dekabr 2014-cü il tarixli 28/2 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov